# ŞƏHİD MƏZUNLARIMIZ



**Pərvanə Fərhadqızı,**
*“Green Start Academy”nin əməkdaşı*
*e-mail: ferhadqizi1984@gmail.com*

Hər bir müəllimin əsas vəzifəsi təhsilli, tərbiyəli, Vətən yükünü öz çiyinlərində daşıya bilən ləyaqətli, sağlam təfəkkürlü vətənpərvər gənclər yetişdirməkdir. İnsanın dəyəri elə onun niyyətindən bəlli olur. Müəllimlər də bu amalı, məsul vəzifəni sevgi ilə aşılayırlar. Türk dünyasının böyük oğlu M.K.Atatürk demişdir: “Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır”. Bəli, nəticə göz qabağındadır.

Bu məqalədə Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təhsilalmış bir neçə tələbənin 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlarından söz açmaq istərdim.

Azərbaycanın ilk kəşfiyyatçı Milli Qəhrəmanı, uğurlu Horadiz əməliyyatının komandiri, şəhid kapitan Elxan Zülfüqarovun bacısı, Qarabağlı müəllim Naridə Zülfüqarovanın 18 yaşlı vətənpərvər tələbəsi **Feyzizadə Toğrul İlqar oğlu** İkinci Qarabağ müharibəsində Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Bir dəfə yaralanıb xəstəxanada müalicə olunsa da, yenidən “Dəmir Yumruq” əməliyyatına, döyüşə yollanıb. Axırıncı dəfə noyabr ayının 1-i ailəsi ilə danışıb, vəziyyətin yaxşı olduğunu bildirib. Noyabr ayının 4-də isə Xocavənd döyüşləri zamanı Qızılqaya yüksəkliyində şəhid olan Toğrul ölümündən sonra ***“Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə”*** medalları ilə təltif edilib.



Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində tələbəsinin igidliyini izləyən Naridə müəllimin 15-ci qrupun tələbəsi Toğrul haqqında dediklərindən: Ailənin böyük oğlu olan Toğrul 2019-2020-ci tədris ilində “avtomobil təmiri üzrə çilingər” ixtisasına daxil olub. Toğrula üç fəndən – avtomobilin ümumi quruluşu, avtomobilin ümumi quruluşu və laboratoriyası, avtomobil şassilərinə texniki qulluq və təmirindən dərs demiş və imtahan götürmüşəm. Onun marağı avtomobilin sökülüb-yığılması və təmirində iştirak etmək idi. Qürur duyduğum tələbəm Toğrul mənim və digər müəllimlərinin əziyyətini itirmədi, tələbə yoldaşlarına örnək oldu.

Adı çəkilən Mərkəzdə təhsil almış şəhid **Qasımov Əli İbrahim oğlu** və şəhid **Məmmədov Murad İlham oğlu** haqqında müəllimləri Gülbəniz Əliyevanın xatirələrindən: “Tələbələrimdən Əli Talış kəndi istiqamətində, Murad isə Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olublar. Hər ikisi 3 il tələbəm olub, gözümün qabağında formalaşıblar. Onlar 9-cu sinifdən bu mərkəzə daxil olmuşdular. Yəni yeniyetmə çağlarında idilər. Mərkəzi 18 yaşlarında bitirib əsgərliyə getdilər. Hər ikisi





də intizamlı, tərbiyəli, mədəni uşaqlar idi. Murad çox savadlı idi, təhsilini Rusiya Federasiyasında davam etdirmək istəyirdi. Lakin düşmən imkan vermədi ki, o, buna nail olsun. Çox gülərüz olduğu üçün ona irad tuturdum, amma şəhid şəklində fikirli, qəmgin düşmüşdür.

Əli isə yaşı az olsa da, həddindən artıq kişi qeyrətli, özünü böyük kimi aparan, mərd oğlan idi. Rəhbərliklə birlikdə Əlinin evinə getmişdik. Ölümündən bir gün öncə "Mən şəhid oldum" mahnısı ilə video çəkib anasına atdığını gördük. Anasına örpək göndərmişdir ki, Mən ölsəm başına qara bağlama, bu örpəyi bağlayarsan. Anasını düşünən, fikirləşən övlad idi ".

Mərkəzin direktor müavini Xalidə Hümbətovanın xüsusi təyinatlı şəhid **Ağayev Rəşad Rövşən oğlu** və şəhid Qasımov Şəhriyar Vəzir oğlu haqqında dedikləri: Tələbəm Rəşad Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin azadlığı uğrunda döyüşüb. O, iki bacının bir qardaşı idi. 20 yaşlı gəncin şüarı "Öncə Vətən" olub. Döyüşçü dostlarını xilas edən zaman snayper gülləsinə tuş gəlib. Ən sevimli aləti gitara olub.



Tələbəm şəhid **Şəhriyar Qasımov** isə 2020-2021-ci tədris ilində "elektrik avadanlıqlarına xidmət və təmiri üzrə elektrik montyoru" ixtisasına daxil olub. 2020-ci ilin oktyabr ayında hərbi xidmətə çağırılıb. O, Füzuli, Cəbrayıl, Xocavənd və bir neçə strateji yüksəkliklərdə döyüşüb. Hadrut uğrunda gedən döyüşlərdə – Ərgünəş dağındakı döyüşdə şəhid olub. O, qorxmaz, mərd biri idi. Köynəyinə yazdığı "Mən Qarabağı sevirəm" şüarı Vətənə olan sevgisinin bariz nümunəsidir".



Rəşad Ağayev ***"Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə"*** medalları ilə, Şəhriyar Qasımov isə ***"Vətən uğrunda"***, ***"Xocavəndin azad olunmasına görə"*** medalları ilə təltif olunublar.

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin şəhid tələbələri və onlar kimi neçə-neçə şəhid olan mərd, qəhrəman oğullarımızın canları, qanları bahasına ərazi bütövlüyümüz bərpa olundu. Bizim borcumuzdur ki, hər zaman onları yaşadaq, adlarını uca tutaq. Ruhları şad, məkanları cənnət olsun! Valideynlərinin qarşısında baş əyirik!